**Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri Ahmet Erentokun "Qızıl Çarx" mükafat mərasimində**

# ÇIXIŞI

17.04.2008

Hörmətli xanımlar və cənablar,
Hörmətli qonaqlar,

Bildiyiniz kimi, bu gün Azərbaycan Türkiyə İş Adamları Birliyinin – ATİB-in qurulmasının 4-cü ildönümü qeyd olunur. ATİB ötən bu müddət ərzində bir sıra mühüm iqtisadi, sosial və mədəni layihələr həyata keçirmiş, Azərbaycanın region ölkələri, eləcə də dünyanın müxtəlif dövlətləri ilə iqtisadi əlaqələrinin genişləndirilməsinə töhfə vermək istiqamətində uğurlara imza atmışdır. Bu 4 il ərzində ATİB-in fəaliyyəti çərçivəsində baş verən hadisələr sadəcə Türkiyə və Azərbaycan arasındakı münasibətlərin deyil, eyni zamanda iki ölkənin birgə regional fəaliyyətinin güclənməsinə də imkan yaratmışdır.

Hər il olduğu kimi bu il də ATİB-in ad günü olan 17 apreldə Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişaf etdirilməsinə ən çox töhfə verən hadisə üzrə “Qızıl Çarx” mükafatı verilir. ATİB ənənəvi olaraq hər il yola saldığımız ildə Türkiyə və Azərbaycan arasındakı çoxtərəfli əlaqələrin inkişafına və bu çərçivədə iki ölkənin regional nüfuzunun artmasına daha çox təsir göstərən hadisəni əsas götürərək **İlin Dövlət Adamı**, **İlin Qeyri-Hökumət Təşkilatı**, **İlin İş Adamı** və ya **Şirkəti** və **İlin Elm Adamı** və ya **Sənət Adamı** olaraq dörd nominasiyada “Qızıl Çarx” mükafatlarını təqdim edir.

Bu gün bura yığışmağımızın məqsədi “Qızıl Çarx” mükafatlarını sahiblərinə təqdim etmək və bu hadisəni, həmçinin ATİB-in ad gününü Üzeyir Hacıbəyov adına Dövlət Simfonik Orkestrinin hazırladığı gözəl konsert proqramı ilə qeyd etməkdir. Hər birinizi bu mərasimdə salamlamaqdan böyük məmnunluq duyduğumu bildirmək istəyirəm.

“Qızıl Çarx” mükafatı artıq üçüncü ildir ki, təqdim edilir. Xatırlatmaq istəyirəm ki, 2005-ci il üzrə ilin hadisəsi kimi Bakı şəhərindən Şimali Kipr Türk Cümhuriyyətinə təşkil edilən birbaşa təyyarə reysi, 2006-cı il üzrə isə Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin fəaliyyətə başlaması seçilmişdi.

ATİB İdarə Heyətinin qərarı ilə 2007-cı ildə regionda iqtisadi əməkdaşlığın güclənməsinə ən böyük töhfə verən hadisə kimi Qara dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyi – UBCCE müəyyən edilmişdir. Bu təşkilatının yaradılmasının ilin hadisəsi kimi seçilməsinə təsir edən əsas səbəblərdən biri də UBCCE-nin regionda qeyri-hökumət təşkilatları tərəfindən yaradılan ilk qurum olmasıdır.

Hazırda Qara dəniz və Xəzər dənizi regionunda 16 ölkədən 19 təşkilat UBCCE-yə üzvdür. Yaxın iki ildə daha 6 ölkədən 9 təşkilatın üzv olması gözlənilir.

Yola saldığımız ildə ATİB-in fəaliyyəti çərçivəsində baş verən hadisələr sadəcə Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin deyil, eyni zamanda iki ölkənin birgə regional fəaliyyətinin güclənməsinə də şərait yaratmışdır. Bu işdə təsisçilərindən birinin də ATİB olduğu Qara dəniz və Xəzər dənizi Sahibkarlar Konfederasiyaları Birliyinin – UBCCE-nin mühüm rolu olmuşdur.

UBCCE yeni yaranmış təşkilat olmasına baxmayaraq, 2007-ci ildə bir sıra nailiyyətlərə imza atmışdır. Bunlardan ən önəmlisi 2007-ci ilin oktyabr ayında ATİB-in təşkilatçılığı ilə Bakıda "Qara dəniz və Xəzər dənizi regionunda regional birbaşa xarici investisiyalar" mövzusunda beynəlxalq konfrans və biznes forumun təşkil edilməsi olmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tədbirə böyük önəm vermişdir. Prezident konfrans və biznes-forumun iştirakçılarına təbrik məktubu ünvanlamaqla yanaşı, UBCCE prezidenti Arzuhan Doğan Yalçındağın da daxil olduğu nümayəndə heyətini qəbul etmişdir. Möhtərəm Prezident İlham Əliyev bu konfrans və biznes forumun Qara dəniz və Xəzər dənizi ölkələri üçün əhəmiyyətini vurğulayaraq, onun həm Azərbaycan, həm də regionun digər ölkələri üçün maraqlı və faydalı olacağına, gələcək birgə layihələrin gerçəkləşdirilməsinə zəmin yaradacağına ümidvar olduğunu bildirmişdir. Biz UBCCE-nin fəaliyyətini həmişə dəstəklədiyinə görə cənab Prezidentə dərin minnətdarlığımızı bildiririk.

UBCCE çərçivəsində həyata keçirilən digər mühüm bir tədbir isə təşkilatın nümayəndə heyətinin 2007-ci ilin oktyabr ayında Avropa Birliyinin əsas strukturlarının yerləşdiyi Brüssel şəhərinə səfəri olmuşdur. Avropa Birliyinin komissarları və digər rəsmiləri, Avropa Birliyi iş adamları təşkilatlarını özündə birləşdirən BusinessEurope təşkilatının nümayəndələri ilə keçirilən görüşlərdə Azərbaycanın biznes ictimaiyyətinin Avropa Birliyinin strukturları ilə, o cümlədən, Avropa Birliyinin iş adamlarını birləşdirən qurumlarla daha yaxın əməkdaşlıqda maraqlı olduqları və bunun regionda rifahın yaxşılaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilmişdir.

Ümid edirik ki, UBCCE bundan sonra da Qara dəniz və Xəzər dənizi regionunda fəaliyyətini genişləndirəcək və regionda “biznesin səsi” olacaqdır.

**Hörmətli dostlar,**

UBCCE-nin yaradılmasında və fəaliyyət göstərməsində mühüm rol oynamış şəxslərə **İLİN DÖVLƏT ADAMI, İLİN İŞ ADAMI, İLİN ELM ADAMI,** təşkilatlara isə **İLİN QEYRİ HÖKUMƏT TƏŞKİLATI, İLİN ŞİRKƏTİ** nominasiyalarında mükafatların təqdim olunması qərara alınmışdır.

Bundan çıxış edərək, UBCCE-nin qurulmasında verdikləri hərtərəfli dəstəyə görə **"İLİN DÖVLƏT ADAMI"** mükafatılarının Azərbaycan Respublikasının iqtisadi inkişaf naziri Heydər Babayev və Türkiyə Respublikasının dövlət naziri Kürşat Tüzmenə verilməsi barədə ATİB İdarə Heyəti yekdilliklə qərar qəbul etmişdir.

UBCCE-nin yaradılması təşəbbüsünü öz üzərinə götürdüyünə və UBCCE Katibliyinin fəaliyyətini təmin etdiyinə görə Türkiyə Sənayeçi İş Adamları Dərnəyi – TÜSİAD **"İLİN QEYRİ-HÖKUMƏT TƏŞKİLATI"** mükafatına layiq görülmüşdür.

**"İLIN İŞ ADAMI"** nominasiyası üzrə mükafatın isə TÜSİAD Prezidenti olarkən UBCCE-nin yaradılmasına verdiyi dəstəyə görə Sabançı Holdinq Müşahidə Şurasının üzvü Ömər Sabançıya verilməsi qərara alınmışdır.

UBCCE-nin 2007-ci ildə həyata keçirilən tədbirlərinə verdiyi dəstəyə görə "Azercell" birgə müəssisəsi **"İLİN ŞİRKƏTİ"** nominasiyasında mükafata layiq görülmüşdür.

ATİB İdarə Heyətinin qərarına əsasən, **"İLİN ELM ADAMI"** nominasiyasında mükafat isə UBCCE-nin təsis edilməsi üçün hazırlıq prosesinə rəhbərlik etdiyinə görə Dr. Haluk Tükelə təqdim ediləcəkdir.

Çıxışımı yekunlaşdıraraq, qeyd etmək istəyirəm ki, ATİB Azərbaycanı regionun qabaqcıl ölkəsi kimi və dünyanın inkişaf etmiş ölkələri sırasında görür və bunun üçün, ilk növbədə Azərbaycanla Türkiyə arasında, daha sonra isə Azərbaycanla digər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsini vacib hesab edir. Bu baxışımızın həyata keçirilməsində əməkdaşlıq etdiyimiz qurum və təşkilatların dəstəyi ilə daha çox müvəffəqiyyət qazanacağımıza, yeni-yeni uğurlara imza atacağımıza əminik.

Sonda UBCCE çərçivəsində fəaliyyətlərin əlaqələndirilməsində müstəsna əməyi olan başda Murat Zöngür olmaqla bütün UBCCE Katibliyinin əməkdaşlarına tədbirimizə qatıldığınıza görə bir daha hər birinizə təşəkkür edir və icazənizlə mükafatları təqdimetmə mərasiminə keçmək istəyirəm.